**Azərbaycan Respublikası vətəndaşlarının 2000-ci ilin oktyabr ayında həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının 2000-ci ilin oktyabr-noyabr aylarında ehtiyata buraxılması haqqında**

**Azərbaycan Respublikası Prezidentinin Fərmanı**

«Azərbaycan Respublikasında hərbi xidmətə çağırışın əsasları haqqında» Azərbaycan Respublikasının Qanununa uyğun olaraq Azərbaycan Respublikası Silahlı Qüvvələrinin və qanunvericilikdə nəzərdə tutulmuş digər silahlı birləşmələrin komplektləşdirilməsi üçün qərara alıram:

1. 1982-ci ildə doğulmuş və çağırış günü üçün 18 yaşı tamam olmuş, habelə 1973—1981-ci illərdə doğulmuş, yaşı 27-dək olan, Respublikanın Silahlı Qüvvələrində və qanunvericilikdə nəzərdə tutulmuş digər silahlı birləşmələrdə hərbi xidmətə çağırışdan möhlət hüququ olmayan Azərbaycan Respublikası vətəndaşları 2000-ci il oktyabrın 1-dən 20-dək həqiqi hərbi xidmətə çağırılsınlar.

2. «Hərbi xidmət haqqında» Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş xidmət müddətini keçmiş əsgər, matros və çavuşlar 2000-ci ilin oktyabr-noyabr aylarında ehtiyata buraxılsınlar.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti və yerli icra hakimiyyəti orqanları bu Fərmanın icrası üçün qanunvericilikdə nəzərdə tutulmuş tədbirləri görsünlər.

4. Bu Fərman imzalandığı gündən qüvvəyə minir.

**Azərbaycan Respublikasının Prezidenti Heydər ƏLİYEV**

**Bakı şəhəri, 20 sentyabr 2000-ci il**

**№ 396**

**Azərbaycan Respublikasının Qanunvericilik toplusu.- 2000.- 30 sentyabr, № 9.- S. 3997.**